**18.09.2010 23:45**
**MƏNBƏ: [www.anspress.com](http://www.anspress.com)**
[http://anspress.com/index.php?a=2&lng=az&nid=61698](http://anspress.com/index.php?a=2&lng=az&nid=61698)

# Bakı-Tiflis-Qars dəmir yolunun tikintisi var gücü ilə davam edir

## Layihə çərçivəsində yeni dəmir yolunun reallaşdırılması da planlaşdırılır




Bakı-Tiflis-Qars dəmir yolunun tikintisində kəskin hava şəraiti və eləcə də ilkin layihə hazırlanarkən yolun geoloji quruluşunun tam öyrənilməməsinə görə meydana gələn müəyyən texniki problemlər səbəbindən gecikmələr olsa da, hazırda işlər var gücü ilə davam edir. Layihə çərçivəsində Gürcüstan ərazisində Axalkalakidən Türkiyə sərhədinə kimi 31 kilometr yeni dəmir yolunun tikintisi, eləcə də Gürcüstanın dəmir yollarının 153 kilometrinin reabilitasiyası da tam gücü ilə davam edir.

Artıq Türkiyə ilə Gürcüstanın sərhəddini kəsəcək tunelin, Gürcüstan tərəfində yerləşəcək Kartsaxi stansiyasının və gömrük terminallarının təməlinin qoyulmasına hazırlıq işləri gedir. Bu yaxınlarda isə tikinti işlərini sürətləndirmək üçün Azərbaycan və Gürcüstanın nəqliyyat nazirləri reabilitasiya işlərinin həyata keçirildiyi Marabda rayonunda oldular. Marneuli yaxınlığında Marabda rayonundan başlayan reabilitasiya işlərinin birinci mərhələsi sona yaxınlaşır.